**BAKI DÖVLƏT UNİVERSİTETİ – 90**
**BAŞ REDAKTORDAN**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN YADİGARI

***«Bakı Dövlət Universiteti Azərbaycan xalqının milli sərvətidir»***

**Heydər Əliyev**

1918-ci ildə öz milli Müstəqilliyini yenicə elan etmiş Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyətə başladığı ilk aylarda həyata keçirdiyi ən böyük tədbirlərdən biri Bakıda Dövlət Universitetinin təsis edilməsi ilə bağlı tarixi əhəmiyyətli qərarı oldu.

Təhsil Quruculuğu sahəsində lazımi təcrübəsi olmayan, ölkədə heç bir ali təhsil müəssisəsi fəaliyyət göstərməyən, təhsilin maddi-texniki bazasını formalaşdırmaq üçün kifayət qədər çətinliklərlə qarşılaşan, milli professor-müəllim kadrların çatışmadığı, iqtisadi cəhətdən çox çətin durumda olan bir ölkədə universitet təşkil etmək mürəkkəb bir iş idi. Bunun üçün ilk növbədə həm də universitetin təsis olunması ilə bağlı qanunvericilik aktları hazırlamaq, parlamentin qərarını vermək və bir sıra başqa mühüm təşkilati tədbirləri həyata keçirmək lazım idi.

Milli hökumət öz qərarında israrlı oldu. Çox keçmədən bütün təşkilati tədbirləri həyata keçirmək və universitetin fəaliyyətini qısa müddətdə təşkil etmək üçün Bakıya dəvət edilmiş V.İ.Razumovskinin sədrliyi ilə Universitet Komissiyası yaradıldı. Bu komissiyanın ilk iclası qaynar keçdi. İşçi qrupunun yaradılması, ştat cədvəli və universitet Nizamnaməsinin hazırlanması, universitet üçün tədris binasının ayrılması və onun lazımi avadanlıqlarla təchiz edilməsi barədə hökumətə təkliflər paketi qəbul edildi. Universitet Nizamnaməsinin ilkin layihəsi hökumətə təqdim olundu.

Mayın 21-də Maarif Naziri Universitet Komissiyasının iclasında çıxış etdi. O göstərdi ki, Azərbaycan hökuməti universitet açmaqda israrlıdır və bu

sahədə artıq bir sıra çox mühüm hazırlıq işləri başa çatdırılmaq üzrədir. Bütün vətəndaşlar Azərbaycan universitetində təhsil ala biləcəklər. Nazir R.Kaplanov eyni zamanda Milli hökumətin belə bir mesajını da xalqa çatdırdı ki, «Azərbaycan hökuməti universiteti lazım olan bütün avadanlıq, tədris vasitələri, yüksək ixtisaslı professor-müəllim heyəti ilə təchiz etmək üçün lazım olan vəsaiti əsirgəməyəcəkdir». Az sonra hökumət adından verilən bu bəyanat həqiqətə çevrildi. Universitet Komissiyasının qərarı ilə Komissiya üzvləri Avropa ölkələrinə – Almaniyaya, İngiltərəyə, Fransaya qabaqcıl təhsil təcrübəsini öyrənmək, tədris planları əldə etmək, Avropanın ən aparıcı mütəxəssislərini Bakı universitetinə dəvət etmək üçün ezam edildi.

Parlament uzun müzakirələrdən, müqavimət və təzyiqlərdən sonra nəhayət universitetin təsisi barədə qərar qəbul etdi. İlk növbədə tarix-filologiya və şərq, hüquq, fizika-riyaziyyat, tibb şöbələrinin açılması qərara alındı. Və universitetin yeni yaranan Elmi Şurasına başqa fakültələrin təşkil edilməsi tapşırığı verildi. Az sonra parlament universitetin ilk Nizamnaməsini təsdiq etdi. Universitetə Muxtar idarəçilik və vəzifələri müsabiqə yolu ilə təyin etmə hüququ verildi. 1919-cu il sentyabrın əvvəllərində Universitetin Təşkilat Komitəsi bir səslə V.İ.Razumovskini universitetin rektoru seçdi. Elə həmin iclasda yeni açılmış fakültələrin dekanları və professor-müəllim heyəti də seçildi. Avqustun axırlarında universitet Komissiyasının sonuncu iclasında Müvəqqəti Elmi və İdarəetmə Şurası təşkil edildi.

Beləliklə Bakı Dövlət Universiteti 1919-cu il sentyabrın 1-də öz qapılarını Azərbaycan tələbələrinin üzünə açdı. Sonradan həmin günləri xatırlayan V.İ.Razumovski yazırdı: «Biz ilk növbədə giriş mühazirələrini təşkil etmək qərarına gəldik. Ümumtarix mövzusunda ilk mühazirəni N.A.Dubrovski oxudu. Yeni böyük və geniş auditoriya dinləyicilərlə dolu idi. Burada tələbələrdən başqa Parlament üzvləri, köhnə ziyalı nümayəndələri, hökumət işçiləri var idi... Uzun illər Şərqi öyrənən tanınmış oriyentalist alim S.A.Vininin xüsusilə parlaq mühazirəsini qeyd etməyə bilmərəm».

Beləliklə tədrisə rus dilində başlayan Bakı Dövlət Universiteti ilk gündən özünün yüksək və parlaq elmi səviyyəsi ilə ictimaiyyətin diqqətini cəlb etdi. Bütün sonrakı dövr fəaliyyəti boyu davam etdirdiyi gözəl ənənələrin əsasını qoydu.

Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra da onun bu böyük yadigarı ilk gündən yaranmış ənənələri davam etdirib zənginləşdirdi. Universitet xalqın həyatına nüfuz etdi, yeni-yeni fakültələr açıldı, bina genişlənib böyüdü. 20-ci illərin əvvəllərində universitetin həyatında iki mühüm hadisə baş verdi. Birincisi universitetdə yenidən Azərbaycan dilinin tədrisinə başlandı və sonrakı illərdə bu, getdikcə genişləndi, ikincisi isə təhsilin pulsuz əsaslara keçirilməsinə başlandı. 1922-ci ildə universitetin Muxtariyyatı ləğv edildi. 1922-ci ildə Xalq Maarif Komissarlığının qərarı ilə universitet «Azərbaycan Dövlət Universiteti» adlandırıldı, az sonra ona V.İ.Leninin adı verildi.

Bu illərdə universitetin rektorları tez-tez dəyişdirilməyə başladı. V.İ.Razumovskini 1920-ci ildə tibb professoru İ.İ.Şirokorov, az sonra onu S.N.Davidenko, 1923-cü ildə isə onu da fəlsəfə professoru A.L.Qulyayev əvəz elədi. Universitetdə rektor vəzifəsi seçki ilə aparılmağa başladı və 1926-cı ildə ilk azərbaycanlı Tağı Şahbazi universitetin rektoru oldu.

1919-1930-cu illər ərzində universitet genişləndi, burada yeni-yeni fakültələr açıldı, tədrisə milli kadrlar cəlb edildi, yerli ziyalılar geniş şəkildə universitetdə təmsil olundu. Ölkədə yüksək ixtisaslı kadrların yetişdirilməsində universitet təhsili mühüm rol oynadı.

1929-cu ildə universitetin 10 illik yubileyi geniş qeyd edildi. 1930-cu ildə ölkə rəhbərliyi universitetin yenidən təşkili barədə qərar qəbul etdi və bir sıra fakültələr universitetdən ayrıldı, yeni təhsil müəssisələri yarandı. Bu yanlış qərar universitet təhsilində müəyyən fasilə yaratdı. Az sonra universitet yenidən bərpa edildi. 1936-37-ci tədris ilində yenidən kafedraların və fakültələrin sayı artdı. 1939-40-cı tədris ilində filologiya fakültəsi bərpa edildi. Azərbaycan folkloru fənni yeni proqramda tədris edilməyə başlandı. Müharibənin başlanması ilə bağlı universitet kollektivinin böyük bir hissəsi könüllü şəkildə cəbhəyə yollandı. Ancaq universitetdə təhsil dayanmadı. Universitet elmi və təhsili böyük Qələbəyə səfərbər edildi. Bu işdə rektorların təşkilatçılıq işi getdikcə genişləndi. Abdulla Qarayev, Y.Məmmədəliyev, sonradan isə C.Hacıyevin rektorluğu illərində universitet təhsilində böyük uğurlar qazanıldı. Burada təhsillə yanaşı elmi tədqiqatların səviyyəsi getdikcə yüksəldi, görkəmli elm adamları universitet təhsilinə cəlb edildi. Bu işdə həmin illərdə universitetin rektoru vəzifəsində çalışan akademik Ş.Mehdiyevin, M.Əliyevin,

F.Bağırzadənin böyük xidmətləri oldu. Universitet təhsili getdikcə yüksəlib genişləndi, ölkənin yüksək ixtisaslı kadrlarla təmin edilməsində, çox mühüm tarixi vəzifələrin həyata keçirilməsində mühüm rol oynadı. Böyük milli öndər H.Əliyevin respublikaya rəhbərliyə gəlməsi ilə bağlı universitet həyatında böyük dəyişikliklər baş verdi. Təhsilin və elmi tədqiqatların səviyyəsi daha da yüksəldi.

Sonrakı illərdə də universitet təhsil və elm sahələrində tarixən qazanılmış ənənələri genişləndirib zənginləşdirdi, bu qabaqcıl təhsil ocağı ölkə təhsilinin flaqmanına çevrildi. Bu işdə sonrakı illərdə universitetdə rektor işləmiş professor Y.Məmmədovun, C.Quliyevin, M.Qasımovun, F.Səməndərovun, M.Mərdanovun, M.Ələsgərovun böyük xidmətləri oldu.

Bakı Dövlət Universiteti bu gün özünün 90 illik yubileyinə çox böyük nailiyyətlərlə gəlir. Universitetdə təhsil artıq yeni dünya standartlarına cavab verən səviyyəyə ucalır. Yüksək ixtisaslı kadrlar yetişdirməkdə onun Avropa təhsilinə inteqrasiyası gündən-günə genişlənir, elmi kadr potensialı getdikcə yüksəlir, universitetdə dünyanın qabaqcıl təhsil metodları tətbiq edilir, Bakı Dövlət Universitetinin adı dünyanın qabaqcıl universitetləri sırasında iftixarla çəkilir. Universitetimizin bu uğurlu yüksəlişində və inkişafında onun bugünkü rektoru akademik Abel Məhərrəmovun böyük və əvəzsiz xidmətləri ölkə ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilir.

Universitet özünün 90 illik yubileyinə yeni-yeni uğurlarla gəlir.

90 yaşın mübarək olsun Azərbaycan Xalq Cümhuriyyətinin ulu yadigarı ana Universitet!

**А.М.Набиев**

**Детище Азербайджанской Народной Республики**

**Р Е З Ю М Е**

В посвященной 90-летию Бакинского Государственного Университета статье говорится об истории создания этого первого высшего учебного заведения.

**A.M.Nabiyev**

## The Creation of Azerbaijan Popular Republic

**S U M M A R Y**

In the article devoted to the $90^{th}$ age of Baku State University is told about the history foundation of the first high school.